# QAYDA VƏ ŞƏRTLƏR

Bu Qayda və Şərtlər **"Savadly.com" Saytı** ilə (bundan sonra "Sayt" adlanacaq) təklif edilən xidmətlərdən istifadə edərkən İstifadəçilərin şəxsi məlumatlarının toplanması qaydası, istifadəsi və açıqlanması ilə bağlı Saytın siyasət və prosedurlarını, İstifadəçilərin Saytdan istifadə zamanı hüquq və öhdəliklərini müəyyən edir və məxfilik hüquqlarının və qanunların İstifadəçiləri hansı qaydada qoruduğunu izah edir.

Göstərilən xidmətin yüksək keyfiyyətdə və səviyyədə olmasının təmin edilməsi və onun daha da təkmilləşdirilməsi məqsədilə Sayt tərəfindən Şəxsi məlumatlarınızdan istifadə edilə bilər. Xidmətdən istifadə etdikdə bu Qayda və Şərtlər ilə müəyyən olunmuş qaydalara müvafiq olaraq şəxsi məlumatlarınızın toplanmasına və istifadəsinə razılıq verirsiniz.

**Əsas anlayışlar**

Aşağıdakı terminlər ismin müxtəlif hallarında, təkdə və ya cəm halında istifadə olunmasından asılı olmayaraq eyni mənaya malikdirlər:

- **Şirkət / Sayt / Savadly.com** – Azərbaycan Respublikası qanunvericiliyinə əsasən qeydiyyata alınmış "Savadly" MMC (VÖEN: 1805018421)
- **Saytın rəhbərliyi / Moderator** – Saytın idarə edilməsinə rəhbərlik edən, Saytın qayda və şərtlərinin dəyişdirilməsi üçün müstəsna hüquqlara malik olan, şəxsi məlumatları təşkil, emal və ya istifadə edən, həmçinin əldə edilən şəxsi məlumatların emalının və istifadəsinin məqsədini, emal və istifadə olunacaq şəxsi məlumatların tərkibini, şəxsi məlumatlarla görüləcək əməliyyatları müəyyən edən şəxs / şəxslər;
- **Hesab** – Sayt tərəfindən təqdim olunan xidmətlərdən istifadə məqsədilə istifadəçilər üçün və ya onlar tərəfindən yaradılmış unikal bir hesab. Hesablar şəxsi xarakter daşıyır.;
- **Sayt**– İstifadəçilər üçün Xidmət Provayderləri tərəfindən müxtəlif sahələr üzrə dərslərin/kursların keçirilməsi xidmətlərinin təklif edildiyi **"Savadly.com"** platforması;
- **İstifadəçi** – Sayt üzərindən Xidmət Provayderləri tərəfindən təklif edilən Xidmətlərdən **Müəllim** və ya **Tələbə** statusu üzrə istifadə edən hər hansı şəxs;
- **Hesab –** İstifadəçilərin Saytda qeydiyyatdan keçərək yaratdıqları və onun vasitəsilə Saytın xidmətlərindən istifadə etdikləri vasitə;
- **Xidmət –** Provayderlər tərəfindən istifadəçilərə Sayt vasitəsilə təklif edilən fəaliyyət;
- **Kurs –** Sayt tərəfindən İstifadəçilərə təqdim olunan, müxtəlif sahələri əhatə edən və Müəllimlər tərəfindən keçirilən dərslər;
- **Xidmət Provayderi** – Sayt üzərindən İstifadəçilərə müxtəlif Xidmətləri təklif edən və həmin Xidmətlərin həyata keçirilməsini, İstifadəçilərə Xidmətlər barəsində məlumat verilməsini təmin edən hər hansı fiziki və ya hüquqi şəxs(lər);
- **Şəxsi Məlumatlar –** Sayt ilə təklif edilən xidmətlərdən istifadə edən müəyyən edilmiş və ya müəyyən edilə bilən hər hansı İstifadəçiyə aid istənilən məlumat;
- **Cihaz -** Xidmətlərdən istifadə üçün Sayta daxil oluna biləcək mobil telefon, kompüter və ya rəqəmsal bir tablet kimi hər hansı bir cihaz;
- **İstifadə məlumatları –** Saytdan istifadə və ya Saytın infrastrukturunun özündən avtomatik olaraq toplanan məlumatlar;

- **IP-ünvan** – IP protokolu ilə nizamlanmış olan kompüter şəbəkəsində qovşağın unikal şəbəkə ünvanı;
- **Təqdimat videosu** – Müəllimlər tərəfindən sayta təqdim olunan, onların təhsil, iş fəaliyyəti, bilikləri, diplom və sertifikatları, həmçinin həmin qəbildən digər məlumatları özündə ehtiva edən qısa videoçarx;
- **Sertifikat** – Tələbələrin istəyi ilə onlara müəllimlərin rəyi əsasında Sayt tərəfindən təqdim olunan, Saytda keçdiyi kursdan öyrəndiyi biliklərinin qiymətləndirilməsini özündə ehtiva edən elektron və ya kağız daşıyıcıda olan sənəd;
- **Xəbərdarlıq** – Sayt tərəfindən İstifadəçilərə bu qayda və şərtlərin sonuncular tərəfindən pozulması zamanı edilən bildiriş.

## İSTİFADƏÇİLƏRİN ÖHDƏLİKLƏRİ

Müəllim qismində Saytda qeydiyyatdan keçərək şəxsi Hesab yaratmış İstifadəçinin öhdəlikləri:

1. Xidmət Provayderi ilə göstərilən xidmət barəsində hər hansı problem yarandıqda bu barədə Sayt Rəhbərliyini məlumatlandırmaq;
2. Öz təhsil və iş həyatından bəhs edən Təqdimat videosu hazırlayaraq Sayta yerləşdirmək;
3. Sayt üzərindən keçirilən dərslərin səmərəliliyini artırmaq məqsədilə bütün mümkün tədbirləri həyata keçirmək;
4. Video dərslərin hazırlanmasını həyata keçirmək və həmin video dərsləri Sayta yükləmək;
5. Sayt tərəfindən müraciət olunduğu halda Tələbələrin bilik səviyyəsinə uyğun olaraq onların Sertifikatla təmin olunmasının mümkünlüyünün müəyyən edilməsi üçün Tələbələrin Kursda öyrəndiyi bilikləri ilə bağlı rəylər vermək;
6. 15 dəqiqəlik ödənişsiz olaraq sınaq dərsinin keçirilməsi;
7. Tələbələrlə Saytdan kənar heç bir halda şəxsi və ya professional münasibətlər qurmamaq və soyadını bildirməmək də daxil olmaqla, özü haqqında Saytda açıq şəkildə yerləşdirilmiş məlumatlardan başqa heç bir məlumat paylaşmamaq.
   Müəllim Tələbələrlə Saytdan kənar münasibətlər yaratdıqda və/və ya özü barədə Saytda göstərilməyən məlumatları paylaşdıqda, qayda pozuntusu ilk dəfə törədildikdə, Müəllimə Şirkət tərəfindən onlayn qaydada Xəbərdarlıq ediləcəkdir. Həmin hal ikinci dəfə təkrarlanarsa, onun törədildiyi təqvim ayı üçün xidmət haqqı ona ödənilməyəcək və Müəllimin Saytdakı hesabı Sayt tərəfindən bağlanacaqdır. Belə olan halda həmin şəxsin artıq müəllim qismində Sayta girişi mümkün olmayacaqdır.
8. Əgər müəllim müəyyən səbəblərlə bağlı müvəqqəti yaxud daimi olaraq dərs tədris edə bilməyəcəyi təqdirdə bu barədə Şirkətə məlumat bildirməlidi. Əks halda, Müəllimə Şirkət tərəfindən onlayn qaydada Xəbərdarlıq ediləcəkdir. Həmin hal ikinci dəfə təkrarlanarsa, həmin şəxsin artıq müəllim qismində Sayta girişi mümkün olmayacaqdır.

Tələbə qismində Saytda qeydiyyatdan keçərək şəxsi Hesab yaratmış istifadəçinin öhdəlikləri:

1. Dərslərə vaxtında qoşulmaq;
2. Dərs zamanı qaydalara riayət edərək dərsin keyfiyyətinə mane olmamaq;
3. Müəllimlərlə Saytdan kənar münasibətdən çəkinərək, dərs müddəti xaricində ünsiyyət qurmamaq;

4. Dərsdə iştirak edə bilməyəcəyi təqdirdə dərs saatının başlanmasına ən azı 4 (dörd) saat qalmış Sayt rəhbərliyini yazılı qaydada məlumatlandırmaq;

Sayt Rəhbərliyinin hüquq və öhdəlikləri:

1. Saytın istifadəyə yararlı vəziyyətdə olmasını təmin etmək;
2. İstifadə zamanı vurulan zərərin ödənilməsini tələb etmək.

**Dərslərin sifarişi**

Tələbə kimi qeydiyyatdan keçilmədiyi təqdirdə Dərs sifarişini həyata keçirmək mümkün deyildir. Qeydiyyat prosesini tamamladıqdan sonra İstifadəçi adına uyğun olaraq səhifə yenilənir, sonra **Kurslar və öyrən** bölməsinə keçid edərək müvafiq dərs seçimi edilir. Təklif olunan dərslər 3 kateqoriyadadır:

**1.Fərdi -** Bu zaman, Müəllim ödənişi baş tutan dərslərin sayına uyğun olaraq hesablanır. Tələbə keçirilməyən dərs(lər)dən hər hansı səbəbdən dərsin başlamasına ən azı **4 saat qalmış** imtina edə bilər. Bu halda, Müəllim ödənişi yalnız tamamlanmış dərslər nəzərə alınaraq hesablanır. Dərsdə iştirak etməkdən imtina ilə bağlı Tələbə bir ay ərzində maksimum 2 (iki) dəfə Şirkətə müraciət edə bilər.

**2.Qrup –** Bu zaman Müəllim tərəfindən kursun müddəti və həmin müddətə uyğun dərs sayı təyin olunur. Əvvəlcədən təyin olunmuş keçirilməli olan dərs sayı tamamlanmayana qədər Müəllimə **Qrup** dərsinin ödənişi həyata keçirilmir. Qrup dərslərindən imtina və ya dərslərdə iştirak etməməyə görə geri ödəniş tələb edilə bilməz. Həmçinin, Müəllimin hər hansı səbəbdən Qrup dərsini yarım qoyma ehtimalı nəzərə alınaraq ödənişin məbləği tamamlanmış dərslərə uyğun hesablanacaqdır.

**3.Video –** Bu zaman təklif olunan kurs 1 videodan və ya videolar toplusundan ibarət ola bilər.

Komissiya məbləği Müəllimin **Tamamlanmış** dərslərinin sayına uyğun olaraq dəyişir. Belə ki, Müəllim aşağıda göstərilən qrafikə əsasən, müəyyən **Tamamlanmış** dərs sayına çatdıqda, tutulan komissiya məbləği azalır. Tamamlanmış dərs sayının həddi və həmin aralığa uyğun komissiyalar aşağıdakı qrafikdə qeyd edilmişdir:




Müəllim şəxsi təşəbbüsü ilə Tələbə cəlb etdiyi halda Komissiya ilə bağlı Savadly tərəfindən güzəşt edilir. Belə ki, qeydiyyatda olmayan Tələbə, Savadly tərəfindən müəllimə təqdim edilən **Xüsusi qeydiyyat linki** ilə qeydiyyatdan keçib, dərs aldığı təqdirdə komissiya haqqı endirilərək həmin alınan dərs üçün **20%** həcmində hesablanır.

Ödəniş həyata keçirildikdən sonra Müəllimin qeydiyyat məlumatlarındakı əlaqə nömrəsinə Köçürülmə ilə bağlı **SMS** göndərilir. Savadly maili vasitəsi ilə **Müvafiq ay üzrə Şəxsi Sifariş Cədvəli** Müəllimin qeydiyyat məlumatlarındakı mail ünvanına göndərilir.

**ÖDƏNİŞ QAYDASI**

**Tələbə:**

- Tələbə tərəfindən hayata keçiriləcək Kursun 1 vahidinin və ya paket şəklində qiyməti müəllim tərəfindən təyin olunur.
- Ödəniş Saytın bank hesab nömrəsinə müvafiq dərsin alışı günü 100 % avans şəklində olmaqla həyata keçirilməlidir.

**Müəllim:**

- Ödəniş məbləğinin 70% hissəsi Şirkət tərəfindən dərsi tədris edən müəllimin bank hesabına tamamlanmış dərslərə mütənasib şəkildə köçürülür.
- Şirkətin mülahizəsinə uyğun olaraq endirim kampaniyaları olduğu təqdirdə təşkil oluna bilər. Bu zaman aylıq dərs sayını tamamlamış müəllimlərin ödənişi ümumi məbləğin endirimli qiymətinin 70 %-i həcmində hesablanacaqdır. 2 % bank köçürmə xərci endirimli ödənişə əsasən müəllimlərin gəlirindən tutulur.

- Şirkət Kursla bağlı bütün ödəniş və faizlərin miqdarını öz mülahizəsinə uyğun şəkildə dəyişdirə bilər. Bu zaman İstifadəçilər bu barədə məlumatlandırılır.
- Müəllimə tamamlanmış dərslər üzrə ödəniş hər təqvim ayınının ilk 5 iş günündə, birdəfəlik olmaqla həyata keçirilir.

**Şəxsi məlumat**

Saytdan rahat şəkildə istifadəni təmin etmək üçün Sizinlə əlaqə qurmaq məqsədi ilə şəxsiyyəti eyniləşdirən bəzi məlumatları Sayta təqdim etməyiniz tələb oluna bilər. Qeyd edilən məlumatlara aşağıdakılar aiddir (Nəzərinizə çatdırırıq ki, Saytdan istifadə zamanı əlavə məlumatların verilməsi də tələb edilə bilər):

- Ad və soyad;
- Şəxsiyyət vəsiqəsi / şəxsiyyət vəsiqəsi məlumatları;
- Telefon nömrəsi (mobil və/və ya şəhər);
- Ünvan (qeydiyyat / faktiki), poçt kodu;
- Elektron poçt ünvanı;
- Kart məlumatları (ödəniş həyata keçirilməsi üçün).

**Şəxsi məlumatlardan istifadə**

Sayt Qayda və Şərtlərə uyğun olaraq toplanılmış şəxsi məlumatlarınızı aşağıdakı məqsədlər üçün istifadə edə bilər:

•Sayt vasitəsi ilə müəyyən Xidmətlərin göstərilməsini təmin etmək, o cümlədən Saytdan istifadəyə nəzarət etmək üçün;
•Təhlükəsizlik yeniləmələri də daxil olmaqla, funksiyalar və xidmətlər ilə əlaqəli bütün yeniləmələr ilə bağlı məlumatların və ya digər növ məlumatlandırıcı bildirişlərin çatdırılması zəruri olduqda elektron poçt, telefon zəngləri, sms və ya digər elektron ünsiyyət formaları əlaqə yaratmaq
•Əgər belə məlumatları qəbul etməkdən imtina etməmisinizsə, əvvəlcədən istifadə etdiyiniz və ya soruşduğunuz xidmətlər və hadisələr barədə xəbərlər, xüsusi təkliflər və ümumi məlumatlar vermək üçün
•İstəklərinizin təmin edilməsi məqsədilə sizinlə əlaqə üçün.

Şəxsi məlumatlarınızı aşağıdakı hallarda və şəxslərlə bölüşə bilərik:
•**Xidmət Provayderləri ilə**: Saytımızdan istifadəni izləmək və təhlil etmək, Platformamızın mühafizə edilməsini təmin, o cümlədən, sizi reklam xidmətləri ilə tanış etmək üçün Şəxsi məlumatlarınızı Xidmət Provayderləri ilə paylaşa bilərik.
•**Tərəfdaşlarla**: Şəxsi Məlumatlarınızı digər tərəfdaşlarımızla bölüşə bilərik.
•**İşgüzar tərəfdaşlarla**: Sizə müəyyən məhsullar və ya xidmətlər təklif etmək üçün məlumatlarınızı biznes tərəfdaşlarımızla paylaşa bilərik.

**Şəxsi məlumatlarınızın saxlanması**

Moderator Şəxsi məlumatlarınızı yalnız bu Məxfilik Siyasətində göstərilən məqsədlər üçün lazım olan müddət ərzində saxlayır. Şəxsi məlumatlarınızı qanuni öhdəliklərimizə əməl etmək üçün (məsələn, məlumatlarınızı tətbiq olunan qanunlara uyğunlaşdırmaq üçün) saxlayacağıq və istifadə edəcəyik.
Moderator, həmçinin daxili təhlil məqsədləri (təhlükəsizliyin gücləndirilməsi və Tətbiqin funksionallığının inkişaf etdirilməsi məqsədləri də daxil olmaqla) İstifadə məlumatlarını özündə saxlayır.

**Şəxsi məlumatlarınızın ötürülməsi**

Moderator Şəxsi məlumatlarınızın Qayda və Şərtlərə uyğun saxlanılması və təhlükəsizliyinin mühafizə olunmasını təmin etmək üçün bütün zəruri tədbirləri həyata keçirməyi öz öhdəsinə götürür.

**Şəxsi məlumatlarınızın açıqlanması**

**Hüquq-mühafizə**

Qanunun və ya hər hansı dövlət orqan qanuni tələblərinə əsasən (məsələn, məhkəmə və s.), Moderatordan Şəxsi məlumatlarınızın açıqlanması tələb oluna bilər.

**Digər zəruri hallar**

Moderator aşağıda qeyd edilən zəruri hallarda Şəxsi məlumatlarınızı açıqlaya bilər:

- Digər Sayt istifadəçilərinin və ya bütövlükdə cəmiyyətin hüquqlarını və ya əmlakını, təhlükəsizliyini müdafiə etmək məqsədilə;
- Saytdan istifadə ilə əlaqəli mümkün səhvləri müəyyən etmək və onların qarşısını almaq məqsədilə.

**Şəxsi Məlumatlarınızın təhlükəsizliyi**

Sizin Şəxsi məlumatlarınızın qorunması Moderatorun prioritetidir, lakin xəbərdarlıq edirik ki, İnternet üzərindən ötürülmə üsulu və ya elektron saxlama üsulu 100% etibarlı deyildir. Şəxsi məlumatlarınızı qorumaq üçün kommersiya baxımından bütün zəruri və mümkün vasitələrdən istifadə etsək də, onun **mütləq** təhlükəsizliyinə zəmanət verə bilmərik.

**Digər veb saytlara bağlantılar**

Saytda Moderator tərəfindən idarə olunmayan digər veb saytlara keçid bağlantılar ola bilər. Qeyd edilən bağlantılara kliklədikdə avtomatik olaraq, üçüncü tərəf olan digər bir veb sayta daxil olacaqsınız. Üçüncü tərəf veb saytların Məxfilik Siyasəti ilə tanış olmağınızı məsləhət görürük, əks halda, Sayt Üçüncü tərəf saytları və ya xidmətlərinin məzmunu, məxfilik siyasəti və ya təcrübələri üçün heç bir risk və məsuliyyət daşımır.

**Tərəflərin məsuliyyəti**

Saytın Rəhbərliyi İstifadəçilər arasında təklif edilən Xidmət barəsində yaranan hər hansı problemə görə məsuliyyət daşımır və istifadəçilər bu cür problemlərin həllini Saytın rəhbərliyindən tələb edə bilməz.

İstifadəçilər Saytı bütün növ məsuliyyyətdən azad edir və qəbul edirlər ki, Sayt Xidmətlərin göstərilməsini birbaşa həyata keçirmir, yalnız əlaqələndirmə funksiyasını icra edir ki, bununla bağlı öhdəlik mövcud deyildir.
İstifadəçilər (müəllim və tələbələr) arasında yaranan mübahisələrdən Sayt cavabdeh deyildir və İstifadəçilər Saytı bu cür mübahisələrdən azad edir.

**Mübahisələrin həlli**

İstifadəçi ilə Sayt Rəhbərliyi arasında münasibətlərin tənzimlənməsinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi şamil edilir və mübahisələrə Azərbaycan Respublikası məhkəmələrində baxılır.